**L.İ. HACIYEVA**
*e-mail: lhajiyeva92@gmail.com*
**:https://orcid.org/0009-0004-1527-8600**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.3.438**

# KİÇİK YAŞ DÖVRÜNDƏ YARADICI TƏFƏKKÜRÜN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

***Xülasə.*** *Məqalədə göstərilir ki, yaradıcı təfəkkürün koqnitiv konstruksiyası kimi çıxış edən idrak qabiliyyətləri yaradıcı pedaqoji prosesə yeni töhfələr verir. Bu zaman qavrayış, yaddaş və təxəyyül yaradıcı təfəkkürün struktur komponentləri kimi əməliyyat mexanizmləri rolunda çıxış edir. Məqalədə yaradıcılıq prosesinin müxtəlif mərhələlərində idrak qabiliyyətlərinin yerinə yetirdiyi funksiyalar da öz əksini tapır.*
*Yaradıcılıq prosesində idrak qabiliyyətlərinin rolu aşağıdakılardan ibarətdir: yaradıcılığın son məqsədini əvvəlcədən müəyyən edir; real vəziyyətin ideal modelini hazırlayır; problemin məzmununun yenilənməsini həyata keçirir; əvvəllər toplanılmış təcrübələrin düşünülmüş və düşünülməmiş səviyyədə yenilənməsində iştirak edir; yeni ideyaların anidən yaranmasına köməklik edir.*
*Müəllif, yaradıcı təfəkkürdə idrak prosesinin funksiyalarını aşağıdakı kimi qruplaşdırır: məqsədyönlülük, modelləşdirmə, dəyişdirici, evrestik və tənzimləyici funksiyalar. Bunları qavrayışın məhsuldar funksiyaları da adlandırmaq olar.*

***Açar sözlər:*** *kiçikyaşlı məktəbli, intellektual və yaradıcı səriştə, təlimə fərdi-fəal yanaşma, kiçikyaşlı məktəbli, inteqrasiya olunmuş təlim*

Tədqiqatla bağlı aparılmış genişmiqyaslı müşahidələrin və məktəbli fəaliyyətinin təhlili göstərdi ki, əqli fəaliyyətin üsulları təkcə ibtidai siniflərdə deyil, həm də yuxarı siniflərdə şagirdlərin əksəriyyəti tərəfindən mənimsənilməmiş qalır. Bunun səbəbi müəllimlərin üsulları xüsusi mənimsəmə predmetinə çevirməməsinin, şagirdlər qarşısında onun strukturunun üzə çıxarılmamasının, məntiqi təfəkkür üsullarının kifayət qədər formalaşmamasının nəticəsidir. Ona görə də kiçikyaşlı məktəblilərdə təfəkkür üsullarının səmərəli formalaşdırmağın şərtlərindən biri təfəkkür üsullarının xüsusi mənimsəmə predmetinə çevrilməsidir.

Hazırda müxtəlif elm sahələrinin alimləri yaradıcı təfəkkür problemini öyrənməklə məşğuldur. Problemin çoxcəhətliliyi, ona müxtəlif konseptual yanaşmalar həll olunmamış çoxlu sayda suallar meydana çıxarır. Belə həll olunmamış məsələlərdən biri də müxtəlif yaş dövrlərində yaradıcı təfəkkürün inkişafının xüsusiyyətləridir. Yaradıcılıq probleminin araşdırmaları ilə bağlı tədqiqatçılar yaradıcılıq qabiliyyətlərinin inkişafının müxtəlif həssas dövrlərini müəyyən edirlər. Tədqiqatımızın mövzusunu və yuxarıda qeyd olunanları nəzərə alsaq, məsələnin daha ətraflı araşdırılmasının zərurəti meydana çıxır.

Uşağın inkişaf mərhələləri hər dövrə uyğun yeniliklərin formalaşması və aparıcı fəaliyyətin dəyişməsi ilə xarakterizə olunur. Ona görə də elmi cəhətdən yaradıcı təfəkkürün inkişafına həssas olan yaş dövrləri müəyyən olunur. Ə.Ə.Əlizadənin, Ə.Ə.Qədirovun, R.İ.Əliyevin, L.S.Vıqotskinin, A.Y.Dudeçkinin, O.M.Dyaçenkonun tədqiqatlarında kiçik yaş dövrünə reproduktiv inkişaf və aktiv yaradıcı təfəkkürün formalaşması dövrü kimi baxılır. Müəlliflərin qeyd etdikləri kimi, bu dövrdə şagirdlərdə fəaliyyətin reproduktiv və məhsuldar tipi formalaşır. Bu zaman məktəb təlim sistemi mühüm əhəmiyyət kəsb edir.

M.E.Boqoyavlenskaya kiçik məktəb yaşından başlayaraq yaradıcılıq qabiliyyətinin (intellektual fəallığın evrestik səviyyəsinin) yaşla bağlı inkişafının aşağı sərhədlərini müəyyən

edərək, məktəb yaşı üçün intellektual fəallığı yenilik hesab edir. Onun qənaətinə görə, altı yaşlı uşaqlarda intellektual fəallığın təzahürü inkişafın qabaqlayıcı təzahürüdür. Tələbəlik dövründə mövcud dinamika ilə əlaqədar olaraq intellektual fəaliyyətin yuxarı həddinin müəyyənliyi yoxdur [2].

Bir çox tədqiqatçıların araşdırmalarının nəticələri daha inamlı şəkildə göstərdi ki, uşaqların abstraksiya və ümumiləşdirmə bacarıqları əvvəllər nəzərdə tutulanlardan da zəngindir. Pedaqoq və psixoloqlar arasında uşaqlarda öz fikrini sübut etmək bacarığının nə zaman meydana çıxması barəsində də fikir birliyi yoxdur. Bəzilərinin (P.P.Blonskiy, Ş.T.Tağıyev) fikrincə bu bacarıqlar əsasən kiçik məktəb yaşı dövründə yaranır. Ş.T.Tağıyevin fikrincə, uşaqlarda öz fikrinin düzgünlüyünü əsaslandırmaq, aldıqları əqli nəticələrin doğruluğunu sübut etmək bacarıqlarının formalaşdırılmasını hətta I sinifdən başlayaraq həyata keçirmək olar [9]. Digər müəlliflər isə (M.D.Qromov, M.N.Şardakov) bu bacarıqların yaranmasını 9-10 yaş dövrünə aid edirlər. Onların tədqiqat araşdırmaları göstərir ki, kiçikyaşlı məktəblilər xüsusi təşkil edilmiş təlim şəraitində şüurlu şəkildə fikirlərini əsaslandırmağın müxtəlif növlərini mənimsəyə bilərlər: münasibətlər əsasında və müqayisələr aparmaqla sübut etmək, deduktiv əqli nəticələr əsasında fikirlərini əsaslandırmaq və s. Lakin bu qaydada fikrini sübut etmək növləri çox bəsit olduğu kimi, onları tətbiq etmək dairəsi də məhduddur. J.Piaje isə bu bacarığın meydana gəlməsini yeniyetmələrin formal əməliyyatlar mərhələsinə keçid aldığı 12-14 yaşa aid edir.

V.S.Yurkeviç yaradıcılığın tədqiqinə yaş dövrləri mövqeyindən yanaşmanın vacibliyini qeyd edir. O, 6-10 və 10-11 yaşlı uşaqlar arasında tədqiqat apararaq, "sadəlövh" və "mədəni" kimi anlayışları öz təvəkkür prizmasından təqdim edir. Burada "sadəlövlük" məfhumu qavrayışda "norma"ların və təcrübənin olmaması, "mədənilik" – isə müqavimət göstərmək bacarığı kimi verilir. O, eksperimental yolla yüksək intellektual inkişaf ilə yaradıcılığın inkişafının mümkünlüyünü və eyni zamanda intellektin aşağı səviyyəsində uşağın ilkin "sadəlövh" yaradıcılığını itirməsini sübut edir [7, s.156-161].

V.S.Yurkeviç qeyd edir ki, uşağın inkişaf istiqaməti – "yaradıcılığa doğru getmək və ya ondan uzaqlaşmaq" kimi müstəqil həll strategiyası yolu ilə qiymətləndirilə bilər. Bu yol məhsuldar (yaradıcı) və ya reproduktiv (nümunə əsasında) ola bilər. V.S.Yurkeviçin tədqiqatının [8] nəticəsinə görə intellektual cəhətdən istedadlı uşaqlarda sadəlövh yaradıcılıq həmyaşıdlarına nisbətən tez yox olur. Halbuki xüsusi təlim şəraitində belə uşaqlarda təxəyyülün inkişafı və yaradıcılığın tənəzzülünə qalib gəlməyin əlamətləri digərlərinə nisbətən daha tez təzahür edir.

Buradan belə nəticə çıxır ki, "mədəni" yaradıcılıq və ya məhsuldar təxəyyül ancaq normal intellektual inkişaf əsasında formalaşa bilər. Uşağa hadisələr bir müddət ərzində məqsədyönlü şəkildə kənardan təsirini göstərsə belə, yenə də onlar yaradıcılıq qabiliyyətlərinin üzə çıxmasını müəyyən edə bilmirlər.

E.V.Leonovun fikrinə görə isə uşaqların "sadəlövh" yaradıcılığı stereotipləri dəf etməyi deyil, stereotiplərin olmadığı halda uşağın təbii davranışını nəzərdə tutur [4, s.201].

Kiçik yaşlı bir uşağa stereotipləri aşmaq gərək deyildir. Çünki bu yaşda uşaqlarda hələ stereotiplər olmur, onlar bunu əldə etməyə çalışırlar. Uşaqların intellektual fəaliyyəti böyüklərdən mexanizminə görə deyil, intellektual təcrübə mərhələsinə, intellektual əməliyyatların həcminə və keyfiyyətinə, əldə olunmuş biliklərin təcrübəyə tətbiq etmə üsullarına görə fərqlənir. Xüsusilə məktəbə daxil olduqdan, intellektual təcrübə əldə etdikdən sonra uşaq fəaliyyətin və davranışın sosial cəhətdən təsdiqini tapmış üsullarını mənimsəyir. Bu zaman təbii, "sadəlövh" yaradıcılıq itir və stereotipləri aktiv şəkildə aradan qaldırmaq ehtiyacı yaranır. Yaradıcılığın mexanizmində tamam başqa – yetkin, mədəni yaradıcılıq yaranır.

"Sadəlövh" yaradıcılıq yaşla əlaqəlidir və müəyyən dərəcədə əksəriyyət uşaqlara aiddir. Onunla müqayisədə "mədəni" yaradıcılıq isə nisbətən az kütləni əhatə edən hadisədir [4, s.218].

N.B.Şumakova, E.İ.Şeblanovanın tədqiqatlarının nəticələri ibtidai siniflərdə yaradıcı təfəkkürün stimullaşdırılmasının mümkünlüyünü və vacibliyini vurğulayır.

Yaradıcı təfəkkürü öyrənən bir sıra müəlliflər tənəzzül və inkişaf dövrlərini qeyd edərək, uşaqlarda yaradıcılıq potensialının inkişafında fasilə və fasiləsizlik problemini nəzərdən keçirirlər. Belə ki, R.İ.Əliyevin tədqiqatında amerika məktəblilərində 9-10 yaşlı uşaqların yaradıcılığın inkişafında tənəzzül mərhələləri araşdırılır. Müəllifin fikrincə, tənəzzül irsi xüsusiyyətlərlə deyil, sosial amillərlə şərtlənir. Tənəzzül uşağın mövcud mədəniyyətdə yeni tələb və stresli hallarla qarşılaşdığı zaman yaranır [1, s.69-71].

V.S.Yurkevic uşaq yaradıcılığının tənəzzülü faktlarını ümumiləşdirərək uşaq yaradıcılığının inkişafına dair öz nəzəriyyəsini irəli sürdü. O, kiçikyaşlı uşaqların (3-6 yaş), məktəblilərin və xüsusən də, böyüklərin yaradıcılığına təsir göstərən stereotiplərin aradan qaldırılmasını yaradıcılığın əsas mexanizmi hesab edir. Onun fikrincə, hər bir konkret halda yaradıcılıq fərqli prinsipial xüsusiyyətə malik olur [8].

Yaradıcı istedadlı uşaqların inkişafının yaş xüsusiyyətlərini nəzərə alaraq A.M.Matyuşkin qeyd edir ki, onlarda aparıcı idrak motivasiyası tədqiqat-axtarış fəallığı formasında ifadə olunur və yeniliyin kəşfində daha həssaslıqla üzə çıxır. Tədqiqat fəallığı və idrak motivasiyası axtarılan yeniliyə qarşı uşağın yüksək seçiciliyində ifadə olunur. A.M.Matyuşkin yaradıcı istedadlı uşaqlarda çox erkən yaşlarından geniş maraq hissi olduğunu qeyd edir. Tədqiqatçı alim aşağıdakı mərhələləri nəzərdən keçirir:

1) 3-5 yaşa qədər tədqiqatçılığa qarşı fəallıq məlum və naməlum olanlarla bağlı sualların qoyuluşunda ifadə olunur.

2) 5-6 yaşda problemli məsələlər istedadlı uşağın istedadının və yaradıcı inkişafının əsas struktur komponentinə çevrilir. Bu uşağın müqayisələr axtarmaq, yeni suallar və problemlər qoymaqda ifadə olunan yeniliklərə daim açıq olmasını təmin edir. Hətta uğursuzluq belə idrak problemi yaradaraq uşağı tədqiqatçılıq fəallığına sövq edir, bununla belə yaradıcı inkişafın yeni mərhələsinin formalaşmasına imkan yaradır.

3) 8-12 yaşda tədqiqatçılıq gizli olanlanların aşkarlanması, problemin həlli ilə başa çatır. Yeni axtarışlar, nəyisə kəşf etmək çətinliyi problemin həllinə köklənmiş, ilkin yanaşmaların aradan qaldırılmasında ifadə olunur. "Həll olunmayan" problemi həll etmək yaradıcılıq aktıdır. O, fəaliyyətin "işə aid olmayan" kənar məhsullarının, təfəkkürün kənar formalarının intuitiv istifadəsi əsasında əldə edilən orijinallığı ilə xarakterizə olunur [5].

V.N.Drujinin uşaqlarda yaradıcılığın inkişafını xarakterizə edərkən iki aspekti müəyyən edir:

– Ümumi yaradıcılıq bacarığı kimi "ilkin" kreativliyin inkişafı. Bu mərhələ üçün həssas dövr 3-5 yaşdır. Bu dövrdə yaradıcılıq nümunəsi əsasında böyükləri təlqinetmə kreativliyin inkişafının əsas mexanizmidir.

– Kreativlik gizli hala keçir [3, s.66].

Elmi ədəbiyyatın təhlili göstərir ki, yaradıcılıq prosesi, istənilən idrak prosesi kimi, çoxlu sayda koqnitiv elementlərdən ibarətdir. Yaradıcılıq problemi ilə məşğul olan əksər tədqiqatçılar yaradıcı fəaliyyəti tənzimləyən psixi proseslərə diqqəti, qavrayışı, yaddaşı və təxəyyülü aid edirlər. Belə ki, A.M.Matyuşkin yaradıcı istedadın strukturuna yaxşı inkişaf etmiş idrak prosesini daxil edir [5].

Bununla belə, ayrıca psixi prosesləri tədqiqat çərçivəsindən çıxarmaq cəhdləri də vardır. V.S.Yurkeviçin fikrincə, uşağın idrak imkanlarının öyrənilməsi yaradıcılıqdan ayrı aparılmamalıdır. Yaradıcılıq imkanlarına fərdin yeni bir şey yaratması potensialı kimi baxılırsa, əqli qabiliyyətə isə yalnız yaradıcılıq üçün vacib olan ilkin şərt kimi baxılır. İnsan potensialının bu bölgüsü fəallığın aktiv və adaptasiya kimi iki tipini müəyyən edir [7].

Tədqiqatçı-alim V.P.Zinçenko psixologiyada analitik və sintetik meyil kimi iki tendensiyanın olduğunu vurğulayır. Analitik meyil ayrı-ayrı psixoloji funksiyaların tədqidi ilə bağlıdır, məsələn, yaddaş, diqqət, təfəkkür. Sintetik meyil isə insan fəaliyyətinin bu və ya digər növünü öyrənməklə məşğuldur, məsələn, təlim, oyun, yaradıcılıq. Onun fikrincə, yaradıcılığın öyrənilməsində, xüsusən də elmi yaradıcılıqda sintetik meyil daha üstünlük

təşkil edir. Ayrı-ayrı idrak proseslərinin təhlilində əldə edilən nəticələrdən isə çox az istifadə olunur. Məsələn, yaradıcı təfəkkürün vacib mərhələsi olan insayt (anidəndən dərketmə) idrak prosesindən kənarda nəzərdən keçirilir. V.P.Zinçenkonun fikrincə, insayt anidən (ani dərketmədən) baş verirsə, idrak prosesləri uzun, daimi və müvəvvəqiyyətli ola bilir.

Tədqiqatçılar idrak və yaradıcılıq proseslərinin vəhdətdə nəzərdən keçirilməsi fikri ilə razılaşırlar. V.S.Yurkeviç bildirir ki, idrak və yaradıcılıq qabiliyyətlərini bütövlükdə – ümumi inkişafın müəyyən bir təməli kimi nəzərdən keçirmək daha məqsədəuyğundur [8]. V.P.Zinçenkonun fikrincə isə, yaradıcılıq fəaliyyətinin elementi kimi perseptiv və mnemonik proseslərin tədqiqi ciddi tədqiqatın predmetinə çevrilməlidir. Çünki onların yaradıcılıqda kifayət qədər nəzərə alınmaması yaradıcılıq prosesinin qanunauyğunluqlarının öyrənilməsinə güclü maneədir.

Biz təxəyyülü, qavrayışı, yaddaşı V.D.Şadrikovun qabiliyyətlər nəzəriyyəsi mövqeyindən idrak qabiliyyətləri kimi qəbul edir və nəzərdən keçiririk. V.D.Şadrikova görə qabiliyyətlər – ifadəlilik ölçüsünə (intensivliyə) malik olan və əldə edilmiş fəaliyyətin uğuruna təsir edən fərdi psixi funksiyaları həyata keçirən funksional sistemlərin xassələridir [6, s.126]. Məhz bu kontekstdə koqnitiv qabiliyyətləri yaradıcı təfəkkürün ayrı-ayrı elementləri kimi nəzərdən keçirmək, onunla bağlı müxtəlif funksiyaları həyata keçirmək daha məqsədəuyğundur.

Yaradıcı təfəkkür, reproduktiv düşüncədən fərqli olaraq, yeni nəticə əldə etməyə, yeni biliklər kəşf etməyə yönəlir. Sözsüz ki, o, fəal idrak əməliyyatlarının həyata keçirilməsini nəzərdə tutur. Aktiv qavrayış, mnemonik və zəngin təxəyyül hərəkətlərinin həyata keçirilməsi əqli fəaliyyətin yaradıcılıq səviyyəsinə keçməsi üçün şərtdir.

İdrak qabiliyyətlərinin fəal xarakterini üzə çıxararkən biz Ə.Ə.Əlizadə, R.İ.Əliyev, L.S.Vıqotski, A.L.Dudeçko, V.P.Zinçenko, A.M.Matyuşkin, S.L.Rubinşteyn V.D.Şadrikova və başqalarının tədqiqat işlərinə əsaslanırıq.

İdrak prosesinin aktiv xarakterini qeyd edən A.M.Matyuşkin yazırdı ki: "Funksional yaranışda istənilən idrak prosesi məsələ həlli zamanı ümumiləşdirmə, məna çalarlığı, təsəvvür, prinsiplər yaradan aktiv proses kimi həyata keçirilir. Psixoloji tədqiqatlarda aktiv proseslər subyektiv yeniliklərin kəşfini təmin edən elementin ekvivalenti kimi çıxış edir" [5, s.7].

Beləliklə, yaradıcı təfəkkürün koqnitiv konstruksiyası kimi çıxış edən idrak qabiliyyətləri yaradıcı prosesə töhfələr verir. Bu zaman qavrayış, yaddaş və təxəyyül yaradıcı təfəkkürün struktur komponentləri kimi əməliyyat mexanizmləri rolunda çıxış edir.

Yaradıcı təfəkkürün mexanizmlərinin öyrənilməsi ilə əlaqədar sual yarana bilər ki, yaradıcılıq prosesinin müxtəlif mərhələlərində idrak qabiliyyətləri hansı funksiyaları yerinə yetirir.

Yaradıcılıq prosesində idrak qabiliyyətlərinin rolu aşağıdakılardan ibarətdir: yaradıcılığın son məqsədini əvvəlcədən müəyyən edir; real vəziyyətin ideal modelini hazırlayır; problemin məzmununun yenilənməsini həyata keçirir; əvvəllər toplanılmış təcrübələrin düşünülmüş və düşünülməmiş səviyyədə yenilənməsində iştirak edir; yeni ideyaların anidən yaranmasına köməklik edir.

Beləliklə, yaradıcı təfəkkürdə idrak prosesinin funksiyalarına aşağıdakılar aiddir: məqsədyönlülük, modelləşdirmə, dəyişdirici, evrestik və tənzimləyici. Bunlara qavrayışın məhsuldar funksiyaları da deyilir:

Məqsədyönlülük – fəaliyyətin məqsəd və vəzifələrinə cavab verəcək obyektin vizual sahəsinin müəyyən olunmasıdır. Problemli situasiyada meydana çıxan obrazlı qavrayış insanın tədqiqatçılıq fəaliyyətinin predmetini təşkil edir.

Modelləşdirmə – yaradıcılıq prosesində insanın transformasiya fəaliyyətinin ideal obyekti kimi çıxış edən cisimlərin və ya hadisələrin obrazında ayrı-ayrı hisslərin birləşməsidir.

Dəyişdirici – vizual sistemin görünən obrazlarını manipulyasiya etmək qabiliyyətidir. Qavrama obrazı ilə manipulyasiya nəticəsində görünən sahə daima transformasiya olunur. İlkin vəziyyət vizual olaraq dəyişdirilir ki, bu da yaradıcı tapşırıqlar üçün fərziyyələrin irəli sürülməsinə köməklik edir.

Evrestik – qavranılan ideyaların yeni məna kəsb etməsi yaradıcı fəaliyyət məhsullarının unikallığını təmin edir.

***Nəticə.*** Uşaq intellektinin inkişafı müəyyən dövr-mərhələlərdən ibarətdir ki, bu dövrdə əsas intellektual strukturun yaranması və formalaşması baş verir. İntellektin inkişafının ontogenezində aşağı pillələrin daha yüksək pillələrlə sadəcə əvəzlənməsi deyil, əvvəllər formalaşmış bütün strukturların daha yüksək səviyyədə inteqrasiyası baş verir. Bu halda əvvəlki mərhələ yenidən qurulur və yüksək səviyyənin tərkibinə onun bir hissəsi olaraq daxil olur.

***Tədqiqatın elmi yeniliyi*** ondan ibarətdir ki, kiçikyaşlı məktəblilərin intellektual və yaradıcı səriştələrinin xüsusiyyətləri, o cümlədən təqlid yolu ilə mənimsənilən evristik zehni hərəkətləri yerinə yetirmək qabiliyyəti və hazırlığı, müstəqil düşünmə, təhsil tapşırıqlarının dərk edilməsinin orijinallığı, ibtidai sinif şagirdlərinin inteqrasiya olunmuş tədris və tədrisdənkənar fəaliyyətlərinin tədris və yaradıcı fəaliyyətə çevrilməsini təmin edir.

***Tədqiqatın praktik əhəmiyyəti*** kiçikyaşlı məktəblilərin intellektual və yaradıcı səriştələrinin formalaşması uşaqların təliminin səmərəliliyi üçün praktik pedaqoji imkanların aşkar edilməsini təmin edir.

## Ədəbiyyat


1. Əliyev, R.İ. Humanist psixologiya / R.İ.Əliyev. – Bakı: ADPU-nun nəşriyyatı, – 2023. – 197 s.
2. Богоявленская, Д.Б. Психология творческих способностей: учебное пособие для студентов высших учебных заведений / Д.Б. Богоявленская. – М.: Академия, – 2002. – 320 с.
3. Дружинин, В.Н. Экспериментальная психология: учебник / В.Н.Дружинин. – 2-е изд., доп. – СПб.: Питер, – 2008. – 320 с.
4. Леонова, Е.В. Лучшие развивающие игры для детей от 7 до 11 лет / Е.В.Леонова. – М.: РИПОЛ. Классик; ДОМ. XXI век, – 2008. – 192 с.
5. Матюшкин, А.М. Психологические предпосылки творческого мышления: по автобиографическим материалам П.А. Флоренского /А.М. Матюшкин// Мир психологии. – 2001. № 1. – с. 128-141.
6. Шадриков, В.Д. Психология деятельности и способности человека / В.Д.Шадриков. – М.: Логос, – 1996. – 316 с.
7. Юркевич, В.С. О «наивной» и «культурной» креативности // Основные современные концепции творчества и одаренности. – М.: Молодая Гвардия, – 1997. – с. 127-142.
8. Юркевич, В.С. Развитие творческих познавательных возможностей младшего школьника // Проблемы способностей в современной психологии. – М.: Просвещение, – 1984. – с. 76-83.
9. Tağıyev, Ş.T. I sinifdə riyaziyyatın tədrisi zamanı şagirdlərə aldıqları nəticələrin doğruluğunu əsaslandırmaq bacarıqlarının formalaşması problemi: / p.e.n....dissertasiya. – Bakı, –1982. – 156 s.


**L.I.Hajiyeva**

## Features of Development of Creative Thinking at a Young Age

***Summary***


The article shows that cognitive abilities, acting as a cognitive construct of creative thinking, make a new contribution to the creative pedagogical process. At this time, perception, memory and imagination act as operational mechanisms as structural components of creative thinking. The article also reflects the functions of cognitive abilities at various stages of the creative process.

The role of cognitive abilities in the creative process is as follows: they determine the ultimate goal of creative activity in advance; create an ideal model of a real situation; update the content of the problem; participate in conscious and unconscious updating of previously accumulated experience; contribute to the sudden emergence of new ideas.

The author groups the functions of the cognitive process in creative thinking as follows: purposefulness, modeling, changing, heuristic and regulating functions. These functions can also be called productive functions of perception.


***Keywords:*** *primary school student, intellectual and creative competence, individual-active approach to learning, primary school student, integrated learning*

**Л.И.Гаджиева**

**Особенности развития творческого мышления в младшем возрасте**

***Резюме***

В статье показано, что познавательные способности, выступающие как когнитивная конструкция творческого мышления, вносят новый вклад в творческий педагогический процесс. В это время восприятие, память и воображение выступают в роли операционных механизмов как структурные компоненты творческого мышления. В статье также отражены функции познавательных способностей на различных этапах творческого процесса.

Роль познавательных способностей в процессе творчества заключается в следующем: они заранее определяют конечную цель творческой деятельности; создают идеальную модель реальной ситуации; осуществляют обновление содержания проблемы; участвуют в осознанном и неосознанном обновлении ранее накопленного опыта; способствуют внезапному возникновению новых идей.

Автор группирует функции познавательного процесса в творческом мышлении следующим образом: целеустремлённость, моделирование, изменяющая, эвристическая и регулирующая функции. Эти функции также можно назвать продуктивными функциями восприятия.

***Ключевые слова:*** *младший школьник, интеллектуальная и творческая компетентность, индивидуально-активный подход в обучении, младший школьник, интегрированное обучение*

*Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev*

*Redaksiyaya daxil olub: 18.06.2025*